# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Elmi-nəzəri cəhətdən yanaşsaq, Firidun bəy Köçərlinin bölgüsü pərakəndə şəkildə olsa da, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi zamanı ədəbi-tarixi proseslərin reallıqlarının nəzərə alınması deməkdir". İsa Həbibbəyli bu fikirdədir ki, indi də dövrlər üzrə təsnifat aparılarkən bu prinsip əsas meyarlardan biri olaraq qəbul edilməlidir. Bundan başqa, Firidun bəy Köçərlinin təsnifatındakı ayrı-ayrı dövrlərin ən görkəmli sənətkarlarına istinad olunması məntiqi mənada dövrləşdirmədə ədəbi məktəblərin rolunun diqqət mərkəzinə çəkilməsi mənasını ifadə edir. Bunu isə öz növbəsində dövrləşdirməyə dair elmi təsnifatlarda sonrakı mərhələdə formalaşan ədəbi cərəyanların da nəzərə alınmasının zəruri prinsiplərdən biri olduğuna işarə kimi də qəbul etmək olar".

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinə dair maraqlı təşəbbüslər içərisində İsmayıl Hikmətin elmi araşdırmalarının doğurduğu marağı qeyd edir. Azərbaycan sovet hökumətinin dəvəti ilə Türkiyədən gəlmiş ali məktəblərin filologiya fakültəsində mühazirələr oxuyan professor İsmayıl Hikmət Ertaylanın (1869-1967) dərslik kimi hazırladığı ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi"ndə (Bakı, 1928) ədəbiyyatın inkişaf mərhələlərindən söz açılarkən "Osmanlı dövrü ədəbiyyatı qavrayışındakı islam amilindən və təzkirəçilikdən" çıxış edilməsi, haqqında bəhs olunan "Azərbaycan ədəbiyyatı tarixi" dərsliyində dövrlər üzrə bölgülərə ayırma islam faktoru ilə əlaqəli şəkildə təqdim olunması, İsmayıl Hikmətin kitabının birinci cildində Azərbaycan ədəbiyyatı "İslamiyyətdən miladi on üçüncü əsrə qədər", "Miladi on üçüncü əsrdən on beşinci əsrə qədər" və "On birinci əsrdən on səkkizinci əsrə qədər"ki mərhələlər üzrə təhlil edilməsi, ikinci cilddə orta əsrlərdə yaşayıb-yaratmış bir qrup sənətkarların "İslamda şiəlik" adı ilə təqdim olunması açıqlanır. İsa Həbibbəyli "ehtimal ki, buradakı "şiəlik" anlayışı kitabın ikinci cildində haqqında söz açılan şairlərin islamın şiə təriqətinə mənsubluğunu bildirmək üçün düşünülmüş baxışdır. Professor İsmayıl Hikmət mərhələlərin adlandırılmasında islam faktoru məfhumundan istifadə etsə də, icmalların və portret-oçerklərin təqdimatında mümkün olduqca dini təbliğatdan uzaqda dayanmağa çalışmışdır. Şübhəsiz ki, bu zaman sovet dövlətinin islam dininə münasibətindəki ateizm təbliğatı nəzərə alınmışdır" - fikrindədir.

Azərbaycan ədəbiyyatı tarixinin ana dili faktorunu əsas götürən İsmayıl Hikmətin milli ədəbiyyat tarixini İzzəddin Həsənoğludan başlaması, dərslikdə xalq ədəbiyyatı, orta əsrlərdə Azərbaycan dilində yazıb-yaratmış şairlərin həyatı və yaradıcılığının geniş şəkildə şərh olunmasını qeyd edən İsa Həbibbəyli bildirir ki, bunlar onun dərsliyində qədim dövr və orta əsrlər Azərbaycan ədəbiyyatının təsnifatında Osmanlı dövrü dini-ideoloji prinsipləri və ədəbiyyat qaydaları ilə birlikdə azərbaycançılıq amilinin də müəyyən yer tutduğunu göstərir.

Professor İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi"ndən nümunə



gətirdiyi bir parçada ("Azərbaycanın çox qədim bir varlığı və bu varlığı canlandıran çox da qədim tarixi olduğu məlumdur. Bu əski və zəngin ölkə müxtəlif irqlərə mənsub insan axınlarına əsrlərcə bir keçid və düşərgə yeri olmuş... nəhayətsiz insan selləri orada çarpışmış, orada qaynamış, müxtəlif irqlərə mənsub qəbilələr orada bulunmuş, tapınmış, ...hökumətlər qurmuş, dinlər yaratmışlar. Bütün bu qaynaşma, bu qatılıb-qarışma içində böyük bir rol oynayan irqlərdən biri də türklərdir. Yaxın zamanlara qədər qara cəhalət buludları altında özülü qalan bu həqiqət tarix, etnoqrafiya və ictimaiyyət tədqiqləri nəticəsində sabitləşmiş, dəqiqləşmişdir") azərbaycançılıq "bu dərsliyin əsas mahiyyətini təşkil edir".

Ədəbiyyatşünaslıqda yetkin və elmi üslubda yazılmış bir araşdırma əsri kimi dəyərləndirilən İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" dərsliyini XX əsrin əvvəllərində ali məktəblərdə mövcud olan ehtiyacı ödəmək üçün nəzərdə tutulsa da, İsa Həbibbəyli İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" dərsliyinin rəsmi dairələrdə etibarlı mənbə kimi qəbul olunmadığını, əlavə ədəbiyyatların siyahısına daxil edildiyini (Məmməd Cəfər Cəfərov), dərsliyə bu münasibətin, 20-ci illərin axırlarından etibarən Sovet-Türkiyə münasibətlərinin gərginləşməsi ilə əlaqədar olduğunu yazır.

Yusif Vəzir Çəmənzəminlinin "Azərbaycan ədəbiyyatına bir nəzər" (1921) kitabına diqqəti çəkir, burada Firidun bəy Köçərlinin baxışlarındakı ədəbi-tarixi proseslərin reallıqlarına istinad olunması meylinin nəzərə alındığını, müəllifin şifahi xalq ədəbiyyatına istinad etdiyini, Azərbaycan yazılı ədəbiyyatının isə İmadəddin Nəsimidən başladığını, "əhatə dairəsi məsələsində isə Yusif Vəzir Çəmənzəminli Türkiyədə və Rusiyada yetişmiş azərbaycanlı müəlliflərin həyat və yaradıcılığını da nəzərə almağı əhəmiyyətli" hesab etdiyini göstərir.

Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kitabında (1927) ədəbiyyat tarixinin "şifahi xalq ədəbiyyatı örnəklərindən və ilkin yazılı ədəbiyyat nümunələrindən" çıxış edilməklə araşdırıldığını, onun Azərbaycan ədəbiyyatı tarixinin aşirət, yəni qəbilə-tayfa dövründən başladığını göstərdiyini, "oğuz faktoruna xüsusi diqqət" yetirsə də, tədqiqatçıların yazdıqları kimi, Əmin Abidin kitabı "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlansa da, orada yazılı ədəbiyyat adına yalnız "Orxon-Yenisey abidələrindən və Kaşğarlı Mahmudun "Divani lüğət-it türk"ündən söz açılır. Əmin Abidin tədqiqat əsərini Azərbaycan ədəbiyyatının mənşəyini müəyyən etmək baxımından "əhəmiyyətli mənbə" kimi dəyərləndirir. Əmin Abidin fikirlərinə münasibətini bildirir. Onun kiçik heca vəznli xalq şeiri Azərbaycan ədəbiyyatının "ibtida"sından ibarət olmasıyla bağlı, Azərbaycan şifahi xalq ədəbiyyatının mənşəyinin Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərində verilmiş qədim azhecalı poetik misralarla başlanması fikirlərini irəli sürdüyünü yazır və "Azərbaycan ədəbiyyatının əhatə dairəsini təsəvvür etmək baxımından da Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi"ndəki" baxışlarının ("Bugünkü vəziyyətə görə Dərbənddən Bağdada, Xorasandan Qara dənizə qədər yayılan geniş torpaqlar üzərində yaşayıb da, eyni dil və ləhcə ilə danışan türklərin yaratdığı ədəbiyyat bizim ədəbiyyatımız deməkdir") genişliyini qeyd etməklə yanaşı, Əmin Abidin əsərində həm də "Azərbaycan ədəbiyyatı tarixini ümumtürk ədəbiyyatı tarixi ilə birlikdə "bir silsilə halında tədqiq edilməsinin lazım olduğunu qəbul edənlərdən" olduğunu da ifadə etdiyini görür.

Bununla belə, Əmin Abidin Azərbaycan ədəbiyyatı tarixinin dövrlərini təzkirəçilik əsasında müəyyən etməkdən "xilas etdiyini", ədəbiyyatın mənşəyinin qədimliyini, əhatə dairəsinin genişliyini müəyyən etməklə elmi fikri irəli apardığını vurğulayır.

Tədqiqatçı Salman Mümtazın "Azərbaycan ədəbiyyatı və el şairləri" (1925) kitabını nümunə gətirir. Burada daha çox xalq-aşıq ədəbiyyatından və XVII-XIX əsrlərdə yaranan ədəbiyyatdan, həmçinin müasiri olduğu sənətkarların əsərlərindən bəhs edildiyi, Əli Nazimin əsasən XX əsrin əvvəllərindən sonrakı dövrdən bəhs edən "Azərbaycan ədəbiyyatı" (1927) əsərində ədəbiyyat tarixini şifahi qaynaqlardan başlamağa dair "çağırışlar-"ın olduğunu, Hənəfi Zeynallı, Abdulla Şaiq və Ababa Musaxanlının "Ədəbiyyatdan iş kitabı" adlı dərs vəsaitində (1928) dövrləşmə məsələsi problem kimi qoyulmasa da, ədəbiyyatın mərhələlər üzrə təhlillərində istər-istəməz yeni qurulmuş sovet cəmiyyətinin ictimai-siyasi tələbləri özünə müəyyən yer aldığını, Mehmet Fuad Köprülüzadənin "Azəri ədəbiyyatına aid tədqiqlər" kitabında (1926) ədəbiyyat tarixinin orta əsr Azərbaycan dövlətlərinin fəaliyyəti ilə, ictimai-siyasi gedişatla əlaqəli şəkildə araşdırıldığını, onun XIX əsri və XX əsrin əvvəllərini Azərbaycan ədəbiyyatının "Təcəddüd dövrü (Yeniləşmə mərhələsi) kimi" səciyyələndirdiyini, Yeniləşmə dövrünə XIX əsr və 1905-ci ilə qədərki ədəbiyyatı aid etdiyini, 1905-1920-ci illərin ədəbiyyatını və Azərbaycan Demokratik Respublikasının süqut etməsindən sonrakı ədəbiyyatı ayrı-ayrı mərhələlər səviyyəsində təhlil etdiyini, Bəkir Çobanzadənin "Azəri ədəbiyyatının yeni dövrü: Nasionalizmdən internasionalizmə" adlı əsərində (1930) çap edildiyi dövrün siyasi gerçəkliyi nəzərə alınaraq, ədəbiyyat tarixi müəyyən dərəcədə sosialist ədəbi düşüncəsi əsasında tədqiq olunduğunu, onun Azərbaycan ədəbiyyatı tarixinə Mirzə Fətəli Axundzadədən başladığını, XIX əsr və XX əsrin əvvəllərinin ədəbiyyatını "yeni dövr" kimi səciyyələndirdiyini, 1905-1920-ci illərin ədəbiyyatını "Füyuzat" və "Şəlalə" dövrü, "Mollanəsrəddinçilər", "Müsavat ədəbiyyatı" və "Oktyabr dövrü ədəbiyyatı" kimi konkret istiqamətlər üzrə təhlil etdiyini, yeni quruluşun prinsiplərinə uyğun olaraq əsərdə sovet hakimiyyətinə qə-dərki ədəbiyyata tənqidi münasibət bəslənildiyini göstərir.

Gəldiyi qənaət budur ki, qeyd olunanlar XX əsrin əvvəllərini Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixinin dövrləşdirilməsi axtarışları və təşəbbüsləri mərhələsi adlandırmağa əsas verir.

* * *

XX əsrin əvvəllərindən bir qədər sonra ədəbiyyat tarixçiliyinin "Azərbaycan ədəbiyyatının sistemli şəkildə araşdırılıb təqdim olunması mərhələsinə" qədəm qoyduğunu söyləyən İsa Həbibbəyli yeni mərhələnin XX əsrin qırxıncı illərindən başlandığını, SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Nizami adına Ədəbiyyat İnstitutunun 1943-1944-cü illərdə iki cilddə "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ni hazırlayıb nəşr etdirdiyini, bunun "Ədəbiyyatımızın tarixini yaratmaq işində ilk təşəbbüs" kimi qiymətləndirildiyini yazır: "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndə ən qədim dövrlərdən başlayaraq XIX əsrə qədərki ədəbiyyat birinci cilddə, XIX əsrdən XX əsrin əllinci illərinədək olan ədəbiyyat isə ikinci cilddə təqdim olunur. İkicildlikdə Azərbaycan ədəbiyyatı şifahi xalq ədəbiyyatından başlayaraq yazılı ədəbiyyatın əsrdən-əsrə keçdiyi inkişaf yolu xronoloji ardıcıllıqla təhlil edilib ümumiləşdirilir". Kitabda Azərbaycan ədəbiyyatının dövrləşməsinə dair xüsusi bir təsnifat aparılması barədə heç bir məlumat olmasa da, "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin hər iki cildində fəsillər qeyd olunarkən "əhatə olunan dövrlər və həmin dövrlərin çevrələdiyi əsrlər adbaad göstərilmişdir" - deyir. Birinci cilddə Azərbaycan ədəbiyyatının qədim dövrünə I-XII əsrlər, orta əsrlər dövrünə isə XIII-XVI əsrlərin aid edildiyini, XVII-XVIII əsrlər ədəbiyyatının ayrıca fəsildə verildiyini, ikinci cilddə XIX əsr, XX əsrin əvvəlləri və sovet dövrü Azərbaycan ədəbiyyatının ayrı-ayrı fəsillərdə təqdim olunduğunu, ayrıca izah və şərh edilməsə də, cildlərdə verilmiş bölgüləri çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixinin inkişaf dövrləri kimi başa düşməyin mümkünlüyünü, "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndəki şərti bölgülər, milli ədəbiyyat tarixçiliyinin ilkin sistemli dövrləşdirmə təşəbbüsü kimi mühüm əhəmiyyətə malik olduğunu söyləyir. Kitabın elmi redaktorları olan Məmməd Arif Dadaşzadə və Heydər Hüseynov, müəllifləri Həmid Araslı (1902-1983), Mikayıl Rəfili (1905-1958), Məmməd Hüseyn Təhmasib (1907-1982), Feyzulla Qasımzadə (1898-1976) və Mir Cəlalın (1908-1978) "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"ndə əldə etdikləri təcrübə əsasında sonrakı dövrdə də ədəbiyyat tarixlərinin yazılmasında yaxından iştirak etdiklərini yazır.

*(Davamı var)*

**Gülxani PƏNAH**